# BƏLKƏ ZİRVƏLƏRƏ YAĞAN QARDAYAM



*Zeynəb CƏMALƏDDİN*

### DİVANİ

Kim ayırdı bu dünyanın günlərini beş-beşə,
Fani deyib beşcə gündə gəldilər hey döş-döşə.
Bəni-adəm girdi cəngə Yerə qədəm basandan,
Kim ağladı, sevindi kim söykənəndə leş-leşə.

Ağlı kölə eylədinsə alma əsir cismini,
Təlqin ilə kim dəyişir Yerdə dünya rəsmini,
Hansı dildə öyrənmişdi Adəm baba ismini,
İnsanlığı kim oynadır şeytan ilə baş-başa.

Kimdi udan, kim uduzan, mükafatı olur nə?
İmtahanda sorğu nədir, ərafatı[1] olur nə?
Qəbaləsi, şəfaəti, ya baratı[2] olur nə?
Kimsə "pənc" ə yeltənəndə kim zər atır şeş-şeşə.

Bir qazanda qaynamağa gərək bircə baş olsun,
Şir şir ilə baş eləsin, quş quşa yoldaş olsun.
Ki, yaradan qismətinə bəlkə yazıb, daş olsun,
Yazıq olur kəsəklərə rast gələndə daş-daşa.

Doğrudurmu min illərlə ömrü olub insanın,
Çoxlu sayda kitabəni ha gizlədin, ha danın.
Məlum deyil kim gedəcək, kim yeyəcək ehsanın,
Zeynəb deyir, fərqinə var, bacar, yüz il yaş yaşa.

*1 Sevinənlər. Şad-şalayın*
*2 Başlanan bir işin və ya birbirinə bağlı bir çox işin arxa-arxaya ve asanlıqla açılıb getməsi.*

*13.03.2025*

### YALANLAR

Didişməyək, anlayaq ki, yer alıb,
Ömrümüzün mərkəzində yalanlar.
Nəfsimizin, beynimizin məhsulu,
Gizli-gizli qəlbimizə dolanlar.

Qucaqlayıb elə basar bağrına,
Şalayınlar? hər acına, ağrına.
Əl də qoyar bəlkə sənin doğruna,
Qismətini utanmadan çalanlar.

Bir az həsəd, bir az eqo səbəbdir,
Yüz tələni düzən-qoşan nə təbdir?
"Canım-cicim" ya adətdir, ya dəbdir,
Ürək yolu - bağlı qapı, dalanlar.

Yol azdıran nə şeytandı, cin, nə də,
Etiraza bəhanə yox hər vədə.
Əqidələr əjdahanı yensə də,
Güvəndiyin ürəkdədi ilanlar.

Kim əmindir ömür sərab, yoxsa yox,
Həqiqətlər sökük corab?, yoxsa yox,
Zeynəb, sonmu türbə-turab, yoxsa yox,
Gücümüzdü bizi aciz qılanlar.

*20.06.2025*

### ALNIMA YAZILAN YAZI DA MƏNİM

Yaş gəlir yaş üştə, dağda qar kimi,
Ürəyim yel çəkir sanki bahardan.
Arzular, ümidlər hələ var kimi,
Gəlir milyon illik köklü çinardan.

Dünyanın qanunu, diqtəsi ilə,
Gah ocaq olmuşam, gah od olmuşam.
Dalğası, zərrəsi, nöqtəsi ilə,
Gah səda olmuşam, gah ud olmuşam.

Bəlkə bir şəkildə ulduzlardayam,
Ya qövsi-quzehin min çalarında.
Bəlkə zirvələrə yağan qardayam,
Püskürən lavanın ortalarında.

Mən bəlkə min dəfə torpağa dönüb,
Sonra dalğa kimi dalğalanmışam?
Bəlkə Ay yandıran çırağa dönüb,
Dəniz sularında çalxalanmışam?

Göydə səyyarələr sayrışıb gedər,
Məndən uzaqsa da öz səsi qədər.
Ölsəm də, itsəm də deyiləm hədər,
Aləmə yaxınam, nəfəsi qədər.

Bu yer də, bu göy də aləmin özü,
Yeri dəyişsə də cəmi dəyişmir.
Mən yer dəyişməyə qorxmuram, düzü,
Kayut dəyişsə də, gəmi dəyişmir.

Ömrün payızı da yazı da mənim,
Mənim. Şükürlüyəm elə bu üzdən.
Alnıma yazılan yazı da mənim,
Qış dağdan başlayar, baharsa düzdən.

Bir canın şəklini zaman pozar ki,
Təşəkkül eyləsin bir özgə canda.
"Stop"la "start"ın nə fərqi var ki,
Bəlkə doğulursan bitdiyin anda.

*17.05.2024*

### KİM TAPAR

Sözdü bizim matahımız, varımız,
Açıldıqca qatbaqatın kim tapar?
Zərə, lələ qarışıbdı darımız,
Cəvahirin ən babatın kim tapar?

Bu meydana yastı-yastı gələnlər,
Qoşun-qoşun, usta-usta gələnlər,
Kor yabını minib asta gələnlər,
Koroğlunun nər Qıratın kim tapar?

Əfsus, eli ram eyləyir qayğılar,
Söz əhlinə yüz ehtiram, saygılar.
Ucuzlaşıb can-bazarda duyğular,
Məhəbbətin koordinatın kim tapar?

Həyat yolu eniş-yoxuş, - gəlmisən,
Çox olub ki, sevinmisən, gülmüsən.
Gözdən axan göz yaşını görmüsən,
Qəlbə axan sərfiyatın kim tapar?

Möcüzə gəz, dırnağında, saçında,
Nə süfrədir çiçəklərin tacında?
Möhrü sənin barmağının ucunda,
İlahinin sirr-baratın kim tapar?

Hər cür eqo - qəlbə girən gilizdi,
Duyğu-fikir təhtəlində filizdi.
Haqq meyarlı taraz mizan qəlizdi,
Doğru-dürüst icraatın kim tapar?

Haqq güləndə bu göy, bu Yer Zeynəbin,
Kəlməsi bir, qəlbi də bir Zeynəbin,
Lap istəyir könlünə gir Zeynəbin,
Qəlb çatının təmiratın kim tapar?

*05.11.2025*

### TƏK ƏLAC
*(Yarıtəmsil)*

Bir iri hörümçək ovlamırdı ov,
Ad-sanı pisliyə çıxmasın deyə.
Əlbir işləməyə saxlayıb girov,
Xırda həmcinslərə çıxırmış yiyə.

Tor-tələ qurmaqla yox idi işi,
Xeyirxah, xoş əməl, üz gülər idi.
Amma ovlamaqdı köhnə vərdişi,
Əli də, toru da özgələr idi.

Hər xırda hörümçək sanki bir zəli,
Tutduğun buraxmaz, tora çəkirdi.
Ovsa gah ağıllı, gah bir az dəli,
Nəfsi hey şöhrətə, vara çəkirdi.

İlişib bu incə, zəif yanından,
Al dilə aldanıb yem də olurdu.
Məst olub, yalanın şirin tamından,
Yeməmiş, içməmiş dəm də olurdu.

Əmilən can-qanı, itən zamanı,
İlğım arzuların bədəl dağıydı.
Sanarkən özünü oyun uzmanı,
Başqa oyunçunun oyuncağıydı.

Bəsirət gözünü açıq istərəm,
Ardınca getdiyim məram düz olsun.
Yalan azdırmasın gerçək donunda,
İstər təqdir edən əlli, yüz olsun.

Sevilmək, öyülmək, şöhrətə varmaq,
İnsana əbədi ehtiyac olub.
Allahın nuruyla qəlbimi sarmaq,
Könlümün dərdinə tək əlac olub.

*04.06.2025.*

### FIRLANIR

Hər insana özəl düşür maraqlar,
Bir-birinə dolaşdıqca torlanır.
Ürəyinə şırım salır oraqlar,
Saçlarına dən də düşür, qarlanır.

Kim anladı nə hikmət var çibində[1],
Ya insanın qəlbinin lap dibində
Görünməyən nə əllərdi cibində,
Kimlər kimi gizli soyur, varlanır.

Hər vicdanı sorğulamaq gözəlsə,
Özümüzü unutmayaq, əzəlsə.
Pisdi məgər dünya kökdən düzəlsə,
İnsan bir az imtinada zorlanır...

Bəlkə əyri düz qazanda bişər də,
Bir gün mənə, bir gün sənə düşər də...
Gündən-günə sivilləşər bəşər də,
Amma nədən göy başına darlanır.

Xeyirlə şər dünən vardı, bu gün var,
Hər birinə Tanrı verən əkin var.
Zeynəb, Haqqa borc adında yükün var,
Yerlə birgə dövrə vurur, fırlanır.

*1 çibin -ağcaqanad; Quranda "Ağcaqanad" surəsinə işarə*

*19.11.2025*

